

Məlum olduğu kimi, Rusiya prezidenti Vladimir Putin bu gün Ermənistana səfər edəcək. Kremldən verilən məlumata görə, prezident Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Kollektiv Təhlükəsizlik Şurasının toplantısında iştirak edəcək.

Bəs bu səfərdən gözləntilər nədir?

Yeni Azərbaycan Partiyası İcra Katibliyinin Siyasi Təhlil və Proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə AzNews.az-a açıqlamasında bildirib ki, Ermənistan Azərbaycan torpaqlarının bir hissəsini işğal etdiyindən bu səfərin nəticələri Azərbaycan ictimaiyyəti üçün də

maraq kəsb edir: “Rusiya Ermənistanı özünün strateji müttəfiqi hesab edir. Amma Ermənistanın apardığı siyasət onu çox zəif dövlət vəziyyətinə gətirib çıxardıb. Bu gün Dağlıq Qarabağ problemi Ermənistan dövlətinin boğazından ağır bir yük kimi asılıb və ondan heç çürə xilas ola bilmir. Rusiya Ermənistanın problemlərinin həllinə və onun cənub sərhədlərində müttəfiq kimi olmasına səy göstərir. Nə qədər ki, Dağlıq Qarabağ problemi var, bu, mümkün olan məsələdir”.

Deputat hesab edir ki, bu görüşdə əsasən Dağlıq Qarabağ məsələsi müzakirə olunacaq. Onun fikrincə, Ermənistanla iqtisadi münasibətlər Rusiya üçün əhəmiyyətsizdir: “Ermənistanın Rusiyanın xarici ticarət dövriyyəsində yeri həddən artıq aşağıdır və Rusiya üçün heç bir maraq kəsb etmir. Ermənistanda strateji obyektlər çoxdan Rusiya tərəfindən alınıb. Burada alınası hər hansı iqtisadi obyekt yoxdur. Dağlıq Qarabağ problemi həll edilməyənə kimi Ermənistan zəifləyəcək. Sonda isə o, dünya xəritəsindən silinə bilər. Ona görə Rusiya hakimiyyəti bacardığı qədər problemi tez və Ermənistan üçün az itkisiz həll etməyə çalışır. Nəticəni əlbəttə ki, Azərbaycan gözləyəcək. Amma bununla belə problemin nə qədər tez həll olunması Ermənistan üçün daha vacibdir, nəinki Azərbaycan üçün. Buna görə də ortada olan hər vaiantlardan ya mərhələli şəkildə istifadə olunması, ya da birdəfəlik ərazi bütövlüyümüzün təmin edilməsi artıq Ermənistanın öz seçimidir. Seçim nə qədər tez edilsə, bu, Ermənistanın gələcəyi üçün bir o qədər əhəmiyyətlidir”.